Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 10 ” mart tarixli
68 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair TƏLƏBLƏR**

## 1. Ümumi müddəalar

1.1. “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər” (bundan sonra - Tələblər) “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələbləri müəyyən edir.

1.2. Bu Tələblərdə dövlət və qeyri-dövlət uşaq müəssisələri (bundan sonra - müəssisə) dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.2.1. təhsil müəssisələri;

1.2.2. sosial xidmət müəssisələri;

1.2.3. açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri;

1.2.4. yetkinlik yaşına çatmayanların tərbiyə müəssisələri;

1.2.5. yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzləri;

1.2.6. tibb müəssisələri;

1.2.7. qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılan digər dövlət və qeyri-dövlət müəssisələri.

1.3. Müəssisələrdə göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər bu Tələblərin 1.2-ci bəndində qeyd edilən müəssisələr üzrə onların qanunvericiliklə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə müvafiq olaraq aşağıdakı sahələri əhatə edir:

1.3.1. müəssisələrdə xidmətlərin təşkili;

1.3.2. yaşayış şəraiti;

1.3.3. qidalanma;

1.3.4. sağlamlığın mühafizəsi;

1.3.5. təlim-tərbiyə və asudə vaxtın təşkili.

1.4. Bu Tələblər 1.2.1-ci yarımbənddə göstərilən müəssisələrə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.

1.5. Bu Tələblər müəssisələrə onların göstərdikləri xidmətlərin həyata keçirilmə formasından (yarımstasionar (günərzi) və ya stasionar) asılı olaraq aid edilir.

## 2. Müəssisələrdə göstərilən xidmətlərin təşkilinə dair tələblər

2.1. Müəssisələrdə göstərilən xidmətlərin təşkilinə dair tələblər aşağıdakılardır:

2.1.1. müəssisənin müasir tələblər səviyyəsində qurulması və uşaqların əqli, fiziki və psixoloji inkişafının təmin edilməsi üçün uyğun şəraitin yaradılması;

2.1.2. müəssisədə çalışan işçilərin qanunvericiliyə uyğun ilkin və dövri olaraq icbari tibbi müayinədən keçirilməsi;

2.1.3. uşağın müəssisəyə qəbulu, yerdəyişməsi və müəssisəni tərk etməsi ilə əlaqədar müəssisənin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə əməl olunması;

2.1.4. müəssisədaxili intizam qaydalarının uşaqların hüquq və azadlıqları, qanuni maraqları nəzərə alınmaqla hazırlanması;

2.1.5. uşağın müəssisəyə yerləşdirilməsi zamanı akt tərtib olunarkən uşağın fotoşəklinin aktın üzərinə vurulması və möhürlənməsi;

2.1.6. valideyn himayəsindən məhrum olmuş uşaqlar haqqında məlumatların Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminə əlavə edilməsi ilə bağlı tədbirlər görülməsi;

2.1.7. uşaqların şəxsi işlərinin mühafizəsinin təmin edilməsi;

2.1.8. uşaqların fiziki, əqli inkişaf, psixoloji və sosial vəziyyətindəki dəyişikliklərlə bağlı məlumatların (o cümlədən foto və videomaterialların) və sənədlərin şəxsi işə əlavə edilməsinin gecikdirilməməsi;

2.1.9. müəssisədə infrastrukturun əlilliyi olan uşaqlar üçün müyəssərliyinin təmin edilməsi;

2.1.10. xidmətlərin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi üzrə müəssisədaxili nəzarətin yaradılması;

2.1.11. işçilər, könüllülər, təcrübə keçən tələbələr və valideynlər (digər qanuni nümayəndələr) üçün davranış qaydalarının müəyyən edilməsi;

2.1.12. göstərilən xidmətlərin xüsusi jurnallarda gündəlik qeydiyyatının aparılması;

2.1.13. göstərilən xidmətlərin səmərəliliyini artırmaq məqsədilə işçi heyətin peşəkarlığının və məsuliyyətinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

2.1.14. uşaqların pozulmuş hüquqları və mənafelərinin bərpası istiqamətində tədbirlərin görülməsi;

2.1.15. müəssisədə yaradılan şəraitin təhlükəsiz və psixoloji cəhətdən sabit, uşaqların ehtiyac və maraqlarına uyğun təmin edilməsi;

2.1.16. uşağın onun mənafeyinə zidd olan hallar istisna olmaqla ailə üzvləri, qohumları və dostları ilə ünsiyyətdə olması və onlar haqqında məlumatlar alması üçün ona müvafiq şəraitin yaradılması;

2.1.17. uşağın fikrinə, şəxsiyyətinə hörmət edilməsi, qanunvericilikdə nəzərdə tutulmuş hallarda hüquq və mənafelərinin həyata keçirilməsi və müdafiəsi istiqamətində uşağa köməklik göstərilməsi;

2.1.18. uşaqlar üçün əlçatan yerlərdə müəssisənin nizamnaməsinin, müəssisədaxili intizam qaydalarının mətnlərinin, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 1.3-cü bəndinə uyğun olaraq uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətini həyata keçirən dövlət orqanları (qurumları) barədə məlumatların (adları, əlaqə imkanları və s.) yerləşdirilməsi;

2.1.19. uşağın özünümüdafiə mexanizmləri və göstərilən xidmətlərin şərtləri barədə məlumatlandırılması;

2.1.20. telefon aparatlarından və digər kommunikasiya vasitələrindən (o cümlədən kompüterlərdən) istifadənin müyəssərliyinin təmin edilməsi;

2.1.21. fövqəladə hallarla bağlı təxliyə planının əlçatanlığının təmin edilməsi;

2.1.22. müəssisədə işçilərlə və uşaqlarla yanğın zamanı təhlükəsizliyə dair müəyyən edilmiş dövrlər üzrə təlim-məşq toplantılarının və maarifləndirmə tədbirlərinin keçirilməsi;

2.1.23 uşağın fərdi məlumatlarının "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq toplanılması, işlənilməsi və mühafizəsi;

2.1.24. sosial xidmətin göstərilməsi və sosial reabilitasiyanın təşkili məqsədilə hər bir uşaq üçün fərdi planın hazırlanmasının təmin edilməsi.

## 3. Müəssisələrdə yaşayış şəraitinə dair tələblər

3.1. Müəssisələrdə yaşayış şəraitinə dair tələblər aşağıdakılardır:

3.1.1. yaşayış sahəsinin adambaşına düşən sahəsinin hər bir müəssisə üçün qanunvericiliklə müəyyən edilmiş normalara uyğunluğu;

3.1.2. otaqların səliqəli və təmiz olması, uşaqların maraqlarına uyğun lazımi avadanlıqla təchiz edilməsi;

3.1.3. hər bir uşaq üçün ayrıca çarpayı, təmiz yataq dəsti, paltarların saxlanması üçün dolabın olması;

3.1.4. ayrıca paltardəyişmə otağının olması;

3.1.5. yataq otaqlarının uşaqların yaşı, cinsi (5 yaşdan yuxarı uşaqlar üçün) və digər xüsusiyyətləri nəzərə alınmaqla təchiz edilməsi;

3.1.6. fərdi və qrup məşğələləri üçün otaqların olması;

3.1.7. otaqların işıqlı, mövsümdən asılı olaraq isti və ya sərin olması, eləcə də havalandırma və mühəndis-kommunikasiya sisteminin dayanıqlı və fasiləsiz təchizatı;

3.1.8. müəssisədə camaşırxana otağının mövcudluğunun təmin edilməsi, camaşırların kifayət qədər havalandırılması, təmiz və səliqəli saxlanılması;

3.1.9. uşaqların mövsümi geyim əşyaları ilə, məktəb yaşında olan uşaqların məktəbli forması, dərslik və dərs ləvazimatları ilə təchiz edilməsi;

3.1.10. iqlim şəraiti nəzərə alınmaqla, qış geyimlərinin ən geci oktyabr, yay geyimlərinin isə ən geci may ayında uşaqlara aid dolablara yerləşdirilməsi;

3.1.11. bütün otaqların gün ərzində 2 dəfə yuyucu vasitələrlə təmizlənməsi;

3.1.12. pilləkən və eyvanların məhəccərinin olması;

3.1.13. müəssisədə yanğından mühafizə, sanitariya-gigiyena və əksepidemik rejimin norma və qaydalarına riayət edilməsi;

3.1.14. müəssisədə uşağın nəqliyyatın hərəkətinin gur olduğu küçəyə, magistral yola, su təsərrüfatı obyektlərinə və ya digər təhlükəli ərazilərə getməsinin qarşısını alan hasar, yaxud maneənin olması;

3.1.15. müəssisədə baş vermiş hadisə, qəza və bununla bağlı görülən tədbirlərin qeydiyyatının aparılması;

3.1.16. məişət tullantılarının bunun üçün ayrılmış bağlı konteynerlərdə saxlanılması və gün ərzində ən azı bir dəfə olmaqla konteynerlərin boşaldılması;

3.1.17. müəssisədə uşaqların təhlükəsizliyinə xələl gətirə bilən təhlükə mənbəyinin olmaması, bütövlükdə müəssisələrin ətrafında olan həyət, zirzəmi, mansard (girişi açıq olan), çardaq, qaraj, üstü açıq quyu (hovuz) və ya anbar ərazisinin uşaqların təhlükəsizliyi baxımından yoxlanılması.

## 4. Müəssisələrdə qidalanmanın təşkilinə dair tələblər

4.1. Müəssisələrdə qidalanmaya dair tələblər aşağıdakılardır:

4.1.1. uşaqların minimum keyfiyyəti və təhlükəsizliyi qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən qida ilə təmin edilməsi;

4.1.2. qida məhsullarının hazırlanması, saxlanması, daşınması zamanı qida məhsullarının təhlükəsizliyinin və yararlılığının təmin edilməsi;

4.1.3. qida məhsullarının mikrobioloji, kimyəvi və fiziki çirklənməsinin qarşısının alınması;

4.1.4. qida məhsullarının xüsusiyyətlərinə uyğun temperatur rejiminə riayət edilməsi;

4.1.5. minimum keyfiyyəti və təhlükəsizliyi, həmçinin qablaşdırılması və etiketlənməsi qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən, aşkar korlanma, dağılma, çürümə əlamətlərinin olmaması, müvafiq müşayiətedici sənədləri (baytarlıq şəhadətnaməsi, arayışı, ekspertiza aktı və ya ətin,

heyvan və quş cəmdəklərinin və digər məhsulların üzərinə qoyulan nişan, daxili karantin sertifikatı, qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal sağlamlıq aktı) olan məhsulların, xammalın, inqrediyentlərin və qida ilə təmasda olan material və məmulatların qəbul edilməsi;

4.1.6. qida bloklarının sanitariya-gigiyena və sanitar-texniki vəziyyətinin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verməsi;

4.1.7. qida bloklarında uyğunluq sertifikatları ilə təmin edilmiş avadanlıqlardan qanunvericiliklə müəyyən edilmiş gigiyena tələblərinə uyğun istifadə edilməsi;

4.1.8. hər bir müəssisədə qida maddələrinə olan fizioloji tələbat və qidalanma normaları əsasında hazırlanmış 10 günlük və ya 2 həftəlik menyu tərtib olunmaqla, yeməkxanaların divarında yerləşdirilməsi;

4.1.9. səhhətində problem olan uşaqların qidalanması üçün həkimin tövsiyəsinə əsasən menyunun hazırlanması;

4.1.10. bir yaşadək uşaqların qidalanmasının fərdi qaydada, fizioloji yaş həddi normalarına və bütün növ qida məhsullarının vaxtında tətbiqinə uyğun olaraq təyin edilməsi;

4.1.11. qanunvericiliklə müəyyən edilmiş qaydada qida blokunda işləyən şəxslərin işə qəbul olunmazdan əvvəl və işlədikləri müddət ərzində hər 6 aydan bir məcburi tibbi müayinədən keçməsinə və tibbi arayışlarla təmin olunmasına nəzarət edilməsi;

4.1.12. qida məhsulları ilə təmasda olan işçilərin icra etdikləri işə uyğun olaraq gigiyenik təlimlərə cəlb edilməsi;

4.1.13. qida obyektlərində çalışan hər bir şəxsin gigiyena qaydalarına ciddi riayət etməsi, təmiz, münasib xüsusi geyimlə (saç toru və ya örtüyü, xalat, önlük) və fərdi mühafizə vasitələri (əlcək, maska, respirator, eynək) ilə təmin edilməsi;

4.1.14. hər gün hazır məhsulun gündəlik nümunəsinin götürülüb saxlanılması (gündəlik nümunə bir porsiya həcmində, qeyri-qənaətbəxş epidemioloji vəziyyət zamanı mikrobioloji tədqiqat üçün 100 qramdan az olmayaraq, yemək və ya qarnir nümunələri həcmində götürülür). Nümunələr qapaqlı steril şüşə qabda götürülərək (qarnir və salatlar ayrı qablarda saxlanılır), xüsusi soyuducuda və ya soyuducunun bu məqsədlə ayrılan bölməsində 48 saat ərzində 2-6°C temperaturda saxlanılır. Gündəlik nümunənin düzgün götürülməsi və saxlanma şəraiti üzərində nəzarətin tibb işçisi tərəfindən həyata keçirilməsi;

4.1.15. tibbi-metodiki tövsiyələr əsasında müəssisədə qalma saatından asılı olaraq gün ərzində uşaqlar üçün müvafiq sayda qidalanmanın təmin edilməsi;

4.1.16. müəssisənin qida anbarı, yeməkxana və mətbəx otaqlarının yanğın təhlükəsizliyi qaydalarına, sanitariya normalarına və qaydalarına, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun fəaliyyət göstərməsi, mətbəx işçilərinin daxili təlimatlara uyğun xidmətinin təmin edilməsi.

## 5. Müəssisələrdə sağlamlığın mühafizəsinə dair tələblər

5.1. Müəssisələrdə sağlamlığın mühafizəsinə dair tələblər aşağıdakılardır:

5.1.1. uşaqların müəssisənin yerləşdiyi ərazi üzrə tibb müəssisəsində uçota götürülməsinin təmin olunması, "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada uşaqların icbari dispanserizasiyadan keçirilməsinin nəzarətdə saxlanılması;

5.1.2. müəssisə daxilində hər uşaqla bağlı aparılmış müayinə və müalicə-sağlamlaşdırıcı tədbirlərin qeydiyyatının aparılması;

5.1.3. tibbi müayinə və nəzarətə ehtiyacı olan uşaqların dövlət tibb müəssisələrinə müayinə və müddətli müalicəyə təxirə salınmadan göndərilməsi;

5.1.4. epidemioloji və yoluxucu xəstəliklər, təbii fəlakətlər zamanı lazımi profilaktik tədbirlərin görülməsi;

5.1.5. uşaqların yerli milli peyvənd təqviminə əsasən immunizasiyaya cəlb edilməsi;

5.1.6. müəssisədə siyahısı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə razılaşdırılmış lazımi dərman və tibb vasitələri ilə təchiz olunmuş tibb otağının təşkil edilməsi;

5.1.7. müəssisədə yaşayan uşaqların sağlamlığının qorunması məqsədilə stasionar müəssisələrin müvafiq təcridetmə otağı ilə təmin edilməsi;

5.1.8. yoluxucu xəstəlik əlamətləri aşkar edilən şəxslərin ilkin tibbi müayinədən keçənədək təcrid otağında saxlanılması;

5.1.9. dərman və tibb vasitələrinin tibb işçisi tərəfindən qeydiyyata alınması, eləcə də istifadə müddətlərinin daim nəzarətdə saxlanılması;

5.1.10. təcrid otağında müayinədən keçən və ehtiyac olduqda təcrid otağında saxlanılan uşaqlar haqqında tibb müəssisəsinə yerləşdirildiyi günədək müəssisənin tibb işçiləri tərəfindən təyin edilmiş diaqnoz, xəstəliyin gedişatını göstərən müşahidə vərəqi, qəbul edilən dərman vasitələrinin adı və qəbul olunma qrafiki haqqında tibbi qeydiyyatın aparılması;

5.1.11. müəssisədə dərman və tibb vasitələrinin saxlanılma dolabının kilidlənməsi;

5.1.12. aşkar olunmuş bütün invaziyalaşmış uşaqların adı “Yoluxucu xəstəliklər” jurnalında qeydə alınaraq dərhal müalicəyə cəlb edilməsi;

5.1.13. uşaqların psixoloji, sosial inkişafına kömək edəcək proqramların hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsi;

5.1.14. uşağın səhhətində irəliləyişin müəyyən edilməsi məqsədilə təkrar qiymətləndirmənin aparılması;

5.1.15. uşaqların fərdi-psixoloji vəziyyətinin qiymətləndirilməsi, nəticədən asılı olaraq müvafiq psixoloji yardımın göstərilməsi;

5.1.16. uşaqların psixoloji, sosial inkişafının davamlı olaraq izlənilməsi, cəmiyyətə uyğunlaşması məqsədilə davranışının korreksiyası, onların tibbi, sosial reabilitasiyası, habelə psixoloji reabilitasiya və psixoloji korreksiyasının təmin olunması;

5.1.17. göstərilən psixoloji yardımların nəticələrinin qeydiyyatının aparılması;

5.1.18. müxtəlif səbəblərdən müəssisəni tərk edəcək uşaqla onun yeni mühitə psixo-sosial adaptasiyası məqsədilə psixoloji söhbətlərin aparılması, psixoloji dəstəyin göstərilməsi;

5.1.19. uşaqların sağlamlığının qorunması ilə bağlı əyani-təşviqat xarakterli tədbirlərin keçirilməsi, şəxsi gigiyena qaydaları ilə bağlı söhbətlərin aparılması;

5.1.20. şəxsi gigiyena məqsədilə uşaqların gigiyenik vasitələrlə təmin edilməsi.

## 6. Müəssisələrdə təlim-tərbiyə və asudə vaxtın təşkilinə dair tələblər

6.1. Müəssisələrdə təlim-tərbiyə və asudə vaxtın təşkilinə dair tələblər aşağıdakılardır:

6.1.1. uşaqların təhsil qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhsil hüququnun və özünüifadə imkanlarının təmin edilməsi;

6.1.2. uşaqlar üçün öyrədici mühitin yaradılması;

6.1.3. məktəbəqədər yaşlı uşaqlar üçün yaşa uyğun tərbiyə qruplarının təşkil edilməsi;

6.1.4. şagirdlərin dərsə davamiyyətinin qənaətbəxş olması;

6.1.5. sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüququnun həyata keçirilməsi üçün şəraitin yaradılması;

6.1.6. uşaqlara cəmiyyətdə ehtiyac duyulan iş sahələrinin tanıdılması, onların peşə meyillərini aşkar etməklə sadə əmək vərdişlərinə yiyələnmələrində lazımi köməkliyin göstərilməsi;

6.1.7. müəssisədə uşaqların yaşlarına uyğun dərs vəsaitləri, didaktik vəsaitlər, məktəb ləvazimatları, bədii ədəbiyyat və oyuncaqlarla təmin edilməsi;

6.1.8. uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə onların mədəni-maarifləndirici və əyləncəli tədbirlərə cəlb olunması;

6.1.9. uşaqların qabiliyyət və istəklərinə uyğun ictimai, mədəni və idman fəaliyyətinə yönəldilməsi.